# “Təfəkkür” Universitetində Dövlət Müstəqilliyi Günü qeyd olundu.

**Oktyabrın 17-də Elm və Təhsil Mərkəzi “Təfəkkür” Universitetində Dövlət Müstəqilliyi Gününə həsr olunmuş tədbir keçirildi.**

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, **professor Rahim Hüseynov** Dövlət Müstəqilliyi Günü münasibəti ilə kollektivi təbrik etdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin Sessiyasında “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı” qəbul edildiyini dedi. Həmin illərdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı kimi dövlət müstəqilliyinə ilkin səs verənlərdən biri olduğunu və bununla fəxr etdiyini bildirdi, sessiyanın gedişi zamanı şahidi və iştirakçısı olduğu hadisələr haqqında danışdı.

Müstəqilliyin qorunub saxlanılmasının onun qazanılmasından çox-çox çətin olduğunu deyən professor Rahim Hüseynov xalqımız müstəqilliyi qazandıqdan sonra onu itirmək təhlükəsi ilə üzləşdiyini bildirdi. Belə bir çətin zamanda xalqın təkidi ilə yenidən siyasi hakimiyyətə qayıdan Heydər Əliyevin müdrikliyi, zəngin dövlətçilik təcrübəsi, yüksək idarəçilik bacarığı sayəsində xalq öz müstəqilliyini qoruyub saxlaya bildi. Ulu öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu.

Rektor Ulu öndərin layiqli davamçısı İlham Əliyev cənablarının ölkəyə rəhbərlik etdiyi son 15 ildə suverenliyimizin siyasi və iqtisadi sutunlarının daha da möhkəmləndirildiyini, müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillərin qorunub saxlandığını, inkişaf etdirildiyini dedi.

Tədbirdə çıxış edənlər müstəqil Azərbaycanın keçdiyi şərəfli yoldan, Ulu öndər Heydər Əliyevin və onun layiqli davamçısı İlham Əliyev cənablarının rəhbərliyi ilə qazanılan uğurlardan, müstəqilliyinin əbədi və dönməz olduğundan, müstəqilliyin Azərbaycan xalqına, Azərbaycan elminə verdiyi xeyirdən danışdılar.